## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü ildə görülmüş işlər barədə hesabat

Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın hərtərəfli inkişaf strategiyasının 2003-cü ildən etibarən Prezident cənab İlham Əliyev tərəfindən qlobal proseslərə və müasir çağırışlara adekvat şəkildə, praqmatik yanaşmalar əsasında daha da təkmilləşdirilməsi, respublikanın ümumi inkişafında milli resurslardan istifadə imkanlarının daha səmərəli və elmi əsaslar üzərində səfərbər edilməsi, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirilməsi ölkəmizi dünyada maraqla qarşılanan və bir çox ölkələr üçün örnəyə çevrilən milli inkişaf modelinə sahib etmişdir. Əldə olunan möhtəşəm uğurlar cənab Prezidentin ilk növbədə ölkədə sosial ədalət prinsiplərinin yüksək səviyyədə təminatına yönələn siyasi kursunun, müasir yanaşmalara əsaslanan mükəmməl islahatlar konsepsiyasının Cənubi Qafqaz məkanında iqtisadi qüdrətinə görə öndə olan Azərbaycanın perspektiv strateji hədəflərinə nail olması və inkişaf etmiş güclü dövlətlər sırasında yer alması üçün də alternativsiz olduğunu təsdiq edir.

Uzunmüddətli inkişaf üçün vacib amil olan iqtisadiyyatın şaxələndirilməsi, neft strategiyası dividendlərinin qeyri-neft sektorunun və regional inkişafın təmin olunmasına səfərbər edilməsi 2014-cü ildə də davam etdirilmişdir. 2014-cü ildə bu sektorda 6,9 faiz artım olmuşdur və Azərbaycan iqtisadiyyatında qeyri-neft bölməsinin payı 60 faizə yaxınlaşmışdır.

Qeyri-neft sektorunun inkişafı sosial rifahın yüksəlməsi, yoxsulluğun azaldılması üçün vacib olan yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artmasında xüsusi əhəmiyyət kəsb edir.

2014-cü ilin sonuna muzdla işləyən 1508 min nəfərin 93,3 faizi məhz bu sektorda çalışır. Dünyada, hətta inkişaf etmiş ölkələrdə işsizlik problemi kəskinləşməkdə olduğu dövrdə Azərbaycanda işsizlik səviyyəsi sürətlə azalaraq 2014-cü ildə 4,9 faizə enmişdir. Çoxsaylı iş yerlərinin 80 faizinin regionları əhatə etməsi də respublikanın bölgələri üzrə əmək bazarları arasında qeyri-bərabər vəziyyətin və məşğulluq üzrə təmərküzləşmə meyllərinin aradan qaldırılmasına imkan vermişdir. Məsələn, Beynəlxalq Əmək Təşkilatının məlumat bazasındakı (İLOSTAT) göstəricilərə əsasən, hələ 2010-cu ildə ölkəmizdə şəhər və kənd yerləri üzrə işsizlik səviyyələri müvafiq olaraq 5,8 faiz və 5,4 faiz olduğu halda, məsələn, Rusiyada bu, 17,6 faiz və 3,7 faiz, Türkiyədə 14,2 faiz və 7,3 faiz, Fransada 9,8 faiz və 7,2 faiz, Bolqarıstanda 8,6 faiz və 12,3 faiz, Latviyada 20,3 faiz və 17 faiz təşkil edib.

Azərbaycan Prezidentinin qlobal iqtisadi böhranın doğurduğu ən çətin sınaqlardan uğurla çıxan sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri vətəndaş firavanlığı amilinin və sosial dövlət prinsiplərinin ön planda saxlanılması, sosial siyasət kursunun ilbəil güclənməsi, ölkədə yoxsulluğun aradan qaldırılmasıdır. Ötən dövrdə bu sahədə əldə olunan nailiyyətlər hazırda mötəbər beynəlxalq iqtisadi institutlar tərəfindən yüksək dəyərləndirilir.

Azərbaycan 2000-ci ildə BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə qoşulmuş 147 ölkədən biridir. Bu sənəddən irəli gələn öhdəliklərdən biri də 2015-ci ilə qədər yoxsulluğun yarıyadək azaldılmasıdır. Ötən müddətdə ölkəmizdə iqtisadi inkişaf və yoxsulluğun

azaldılması üzrə gerçəkləşdirilən dövlət proqramları, konkret sahələr, eləcə də regional inkişaf proqramları yoxsulluğun səviyyəsinin 2003-cü ildəki 49 faizdən 2014-cü ildə 5 faizə, yəni ümumilikdə 10 dəfə azalması və qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağı enməsi ilə nəticələnmişdir.




2003-cü ildə dünyada gündəlik gəliri 2 dollardan aşağı olan 2,6 milyard əhalinin müəyyən hissəsi ölkəmizdə idisə, bu gün dünyada gündəlik gəliri 2 dollardan az olan 2,5 milyard nəfər arasında Azərbaycan əhalisi artıq yoxdur. Çünki ölkəmizdə adambaşına ehtiyac meyarının məbləği (hazırda 105 manat) ayda 134 ABŞ dolları səviyyəsindədir və bundan aşağı gəlirlərlə həmin səviyyə arasında yaranan fərq yardım şəklində dövlət hesabına ödənilir.

Sosial rifah halının yüksəlməsi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycan BMT-nin son hesabatına əsasən, insan inkişafı indeksinə görə 187 ölkə sırasında 76-cı yerdə qərarlaşıb və yüksək inkişaf səviyyəsinə malik ölkələr qrupuna daxil olub. Bu uğurların əldə olunmasında əhalinin gəlir imkanlarının artırılması üçün çoxsaylı və keyfiyyətli iş yerlərinin açılması, sahibkarlığın dəstəklənməsinə və iqtisadiyyatın müasirləşdirilməsinə yönələn fəal siyasətin aparılması, əmək haqlarının, pensiya və digər sosial ödənişlərin mütəmadi artırılması əsas rol oynayır. Məsələn, minimum əmək haqqının məbləği son 10 ildə 11,6 dəfə, bir nəfərə düşən orta aylıq əmək haqqı 5,5 dəfə, 2006-cı ildən müəyyən edilən ehtiyac meyarının məbləği isə ötən dövrdə 3,5 dəfə artmışdır. Hazırda ehtiyac meyarı məbləğinin (105 manat) yaşayış minimumu məbləğinə (131 manat) nisbəti göstəricisi də 80 faiz olmaqla, bir sıra inkişaf etmiş ölkələrin müvafiq göstəriciləri ilə eyni səviyyədədir.



Ümumilikdə, əhalinin gəlirləri 2003-cü ildəki 5,7 mlrd. manatdan 2014-cü ilin sonuna 39,4 mlrd. manata çatmışdır. Əhalinin gəlirlərinin artımı müqabilində inflyasiya səviyyəsinin ilbəil birrəqəmli saxlanılması bu gəlirlərin rifah halının yüksəlməsinə təsirini stimullaşdırır.




Sosial siyasətin mütəmadi olaraq güclənməsi daha çox həssas əhali qruplarına yönələn dövlət qayğısının artmasında özünü göstərir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkədə həyat səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan uğurlu siyasət sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının mütəmadi şəkildə artırılması, sosial təminat sisteminin daha geniş əhali kateqoriyalarına yönəldilməsi ilə müşayiət olunub. Son on ildə sosial müdafiə və sosial təminat xərcləri 8 dəfə artmışdır. Bu gün Azərbaycan kifayət qədər geniş əhali kateqoriyalarını əhatə edən sosial təminat sisteminə malik bir ölkə kimi seçilir və həssas əhali qruplarına münasibətdə Azərbaycan dövlətinin mövqeyi qlobal miqyasda ən humanist yanaşmalara əsaslanması ilə diqqəti cəlb edir.

2014-cü ildə respublika əhalisinin 4,4 faizinə və ya 451,7 min nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir ki, bunlardan da 335,3 min nəfəri və ya 74,2 faizi aylıq, 116,4 min nəfəri və ya 25,8 faizi isə birdəfəlik sosial müavinət alanlardır. Bundan əlavə, 51,6 min nəfərə Azərbaycan Respublikası Prezidentinin müxtəlif Fərman və Sərəncamlarına əsasən Prezident təqaüdləri təyin olunaraq ödənilir. 2014-cü ildə penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan 4,5 min nəfərə birdəfəlik pul müavinəti təyin edilib ödənilmişdir.

2014-cü ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən yalnız sosial cəhətdən həssas qruplarla bağlı 10-dan artıq Fərman və Sərəncam imzalanıb ki, bu sənədlər sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinə və sosial təminat sisteminin əhatə dairəsinin daha da genişləndirilməsinə xidmət etmişdir. Nəticədə, Prezident təqaüdünün orta aylıq məbləği müharibə əlilləri və onlara bərabər tutulan şəxslər üçün 50 faizə yaxın, Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslər üçün 81,8 faiz, Qarabağ müharibəsi veteranlarına aylıq sosial müavinətin məbləği 21,6 faiz artmışdır.

Həmçinin bu fərman və sərəncamlar ölkədə bir sıra yeni təminat növlərinin formalaşmasına da səbəb olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2013-

cü il 23 dekabr tarixli Sərəncamı ilə İkinci Dünya müharibəsində Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində işləmiş, müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə Prezident təqaüdlərinin ödənilməsinə başlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Fərmanı ilə beşdən çox uşağı olan qadınların uşaqlarının hər birinə görə 2014-cü ilin əvvəlindən ayda 30 manat müavinət, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli Fərmanı ilə 1 aprel 2014-cü il tarixindən I qrup əlilliyə görə sosial müavinət alan şəxslərə 60 manat məbləğində Prezident təqaüdü təyin olunaraq ödənilir. Eyni zamanda, Azərbaycan Prezidentinin 2014-cü il 18 mart tarixli Sərəncamı ilə müharibə əlilləri və şəhid ailələrinin ödənişli ali və orta ixtisas təhsil müəssisələrində təhsil alan övladlarının təhsil haqlarının 2014/2015-ci tədris ilindən etibarən dövlət büdcəsi hesabına ödənilməsinə başlanmışdır.

2014-cü ildə aylıq və birdəfəlik sosial müavinət, təqaüd və kompensasiyaların ödənilməsi üçün 292,7 milyon manat vəsait xərclənmişdir ki, bu da 2013-cü illə müqayisədə 50,4 milyon manat və ya 20,8 faiz çoxdur.

Ölkədə həyat səviyyəsinin mütəmadi yaxşılaşması və bu yardımların təyinatında ünvanlılığın və şəffaflığın təminatı sahəsində son vaxtlarda görülən işlər ünvanlı yardım təyin olunan ailələrin sayının azalmasına səbəb olmuşdur.

2014-cü ilin sonunda 2013-cü ilin sonu ilə müqayisədə ünvanlı yardım təyin olunan ailələrin sayı 35,5 faiz (50823 ailə və ya 223577 nəfər ailə üzvü) azalaraq 92514 ailə (404272 nəfər ailə üzvü) təşkil etmişdir.




Yardım alan ailələrin sayının azalması digər tərəfdən aztəminatlı ailələrə ödənilən yardımların məbləğinin artması ilə müşahidə olunmuşdur. Belə ki, 2014-cü ilin sonuna ünvanlı dövlət sosial yardımının bir ailəyə düşən orta aylıq məbləği 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 29,5 manat (23,5 faiz) artaraq 155 manata, bir ailə üzvünə düşən orta aylıq məbləği isə 6,72 manat (23,4 faiz) artaraq 35,5 manata çatmışdır.

2014-cü ildə ünvanlı dövlət sosial yardımının maliyyələşməsinə ümumilikdə 198 milyon manat vəsait xərclənmişdir ki, bu da 2013-cü illə müqayisədə 3,1 milyon manat (1,5 faiz) çoxdur.

2014-cü ildə ayrı-ayrı ildönümlərlə əlaqədar, həmçinin sosial-məişət problemlərinin həllinə köməklik məqsədilə ümumilikdə 14486 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaq birdəfəlik maddi yardımlarla təmin olunmuşdur.

Ümumilikdə bu təminat növləri və sosial xidmətlərlə, həmçinin pensiya ilə təmin edilənlər də nəzərə alınmaqla sosial təminat sistemi respublika əhalisinin 23 faizdən çoxunu əhatə edir. Bütün bunlar ölkəmizdə sosial təminat sisteminin getdikcə güclənməsinin və daha geniş əhali kateqoriyalarını əhatə etməsinin təzahürüdür.

Ölkəmizdə məşğulluq imkanlarının getdikcə genişlənməsi, digər tərəfdən əmək bazarında formal əmək müqavilələrinin bağlanması hallarına tez-tez yol verilməsi və belə halların, son nəticədə, həm işçi hüquqlarının təminatında, həm də vergi və sosial sığorta haqlarının ödənişində ciddi problemlərə yol açması bu sahəyə dövlət nəzarətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə daha səmərəli təşkili məsələsini aktuallaşdırdı. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2014-cü il 3 fevral tarixli Fərmanı bu aktual məsələnin həlli üçün mühüm islahatın aparılmasına əsas yaratdı. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qısa müddətdə mükəmməl proqram təminatına malik əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin hazırlanaraq "Elektron hökumət" portalı üzərindən istifadəyə verilməsi Azərbaycanda əmək münasibətlərinin rəsmiləşdirilməsində keyfiyyətcə yeni bir mərhələ açdı və bu sahədə 2014-cü ilin ən uğurlu nəticələrindən biri MDB məkanında ilk dəfə olaraq Azərbaycanda əmək müqavilələrinin elektron qeydiyyatı sisteminin qurulması oldu.

Bununla da əmək hüquqlarının təminatına dövlət nəzarətinin səmərəli təşkili, əmək müqavilələrinin bağlanmasında formal yanaşmalardan irəli gələn, işçinin hazırkı əmək və gələcək sosial təminat hüquqlarını sual altında qoyan, qeyri-leqal məşğulluq hallarının aradan qaldırılmasına imkanlar yarandı.




2015-ci ilin 1 yanvar tarixinə elektron informasiya sisteminə 52 min işəgötürən tərəfindən 1,26 milyon aktiv işçi üzrə 1,73 milyon əmək müqaviləsi bildirişi daxil edilmişdir

2014-cü ildə "Elektron hökumət" potalı tərəfindən təqdim edilən elektron xidmətlərdən istifadə statistikasına görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birinci yeri (portal istifadəçilərinin 42 faizi Nazirliyin təklif etdiyi e-xidmətlərdən istifadə etmişlər) tutmaqdadır. Ümumilikdə, ƏƏSMN-nin təqdim etdiyi elektron xidmətlərdən 2,5 milyon dəfə istifadə olunmuşdur.

Göstərilən elektron informasiya sistemi qeyri-leqal əmək münasibətlərinin qarşısının alınmasında, muzdlu işçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsində, dövlət büdcəsinin gəlirlərinin və sosial sığorta haqlarının artmasında, həmçinin əmək bazarının təhlili üçün informasiya bazasının formalaşdırılmasında mühüm rol oynayır.

Bununla bərabər, 2014-cü ildə əmək qanunvericiliyinin gözlənilməsinə nəzarət üzrə inzibati tədbirlər də sərtləşdirilmişdir. Hesabat dövründə Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikamızda fəaliyyət göstərən 11527 işəgötürəndə əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dövlət nəzarəti həyata keçirilmiş, vətəndaşlardan daxil olmuş 4586 şikayət məzmunlu ərizə və müraciət, müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 1609 ədəd müxtəlif xarakterli sorğu araşdırılaraq cavablandırılmışdır.

Dövlət nəzarəti tədbirləri və vətəndaşların müraciətlərinin araşdırılması zamanı 20417 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Həmin hüquq pozuntularının böyük əksəriyyətinin aradan qaldırılması təmin edilmiş, aradan qaldırılması vaxt tələb edən pozuntuların ləğvi üçün işəgötürənlərə icrası məcburi olan göstərişlər verilmiş və icrası nəzarətə götürülmüşdür.

Törədilmiş inzibati xətaya görə 3113 vəzifəli və hüquqi şəxs barədə inzibati qərar qəbul edilərək 4,3 milyon manat məbləğində inzibati cərimə tətbiq olunmuşdur ki, bu da 2013-cü ilə nisbətən 6,8 dəfə çoxdur. Tətbiq edilmiş cərimələrin 44,6 faizi dövlət büdcəsinə ödənilmişdir ki, bu da 2013-cü ilin nəticələrindən 24 dəfə yuxarıdır.

Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən görülmüş tədbirlər nəticəsində vətəndaşlara ödənilməsi təmin edilmiş gecikdirilmiş ödəmələrin ümumi məbləği 527,6 min manat olmuşdur. Bu məbləğin 88,8 faizi əmək haqqının, 6,4 faizi zərər əvəzi ödənclərin və 4,8 faizi sosial müavinətlərin və kompensasiyaların payına düşür. İqtisadiyyat sahələri üzrə işçilərə ödənilməsi təmin edilmiş ödənclərin əksəriyyəti emal sənayesinə (18,6 faiz) və tikintiyə (22,6 faiz) aiddir.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 13 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, işçilər barəsində yol verilmiş çoxlu sayda qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

Hesabat dövründə istehsalatla əlaqəli sayılmış 225 bədbəxt hadisənin təhqiqatı aparılmışdır ki, onlardan da 28-i qrup halında baş vermişdir. Bu hadisələr nəticəsində 90 nəfər həyatını itirmiş, 183 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır. İqtisadi fəaliyyət sahələri üzrə istehsalatla bağlı bədbəxt hadisələrin daha çox tikinti sektorunda (bütün hadisələrin 28,9 faizi), emal sənayesində (15,1 faiz), energetika sahəsində (10,7 faiz), mədənçıxarma sənayesində (10,2 faiz) və nəqliyyat sektorunda (8,9 faiz) baş verməsi müəyyən edilmişdir.

Əmək potensialının keyfiyyətcə yüksəldilməsi üçün Dünya Bankının "Sosial Müdafiənin İnkişafı Layihəsi" çərçivəsində beynəlxalq ekspertlərin və yerli mütəxəssislərin iştirakı ilə iqtisadiyyatın müxtəlif sahələri üzrə hazırlanmış 200 peşə standartı cari ilin əvvəllərində işəgötürənlərin istifadəsinə verilmişdir. 2014-cü ildə daha 70-ə yaxın yeni peşə standartının layihələri hazırlanmışdır.

Aparılan islahat tədbirlərindən biri də əlillik təyinatı prosesinin tam avtomatlaşdırılmasıdır. Bu məqsədlə 2014-cü ildə yaradılmasına başlanılan Tibbi-Sosial

Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sistemi əlillik müayinələrinin aparılması üçün müvafiq qurumlar arasında elektron məlumat mübadiləsinə şərait yaradır.

Tibbi-sosial ekspertiza sahəsində şəffaflığın təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində ilkin əlillik təyin olunmuş şəxslərin sayı 2013-cü ilə nisbətən 7660 nəfər, təkrar əlil hesab edilənlərin sayı 3940 nəfər azalmış, tam reabilitasiya olunanların sayı isə 1800 nəfər artmışdır.

Bu təbəqədən olanların mənzillə və minik avtomobili ilə təminatında mühüm addımlar atılmaqla bərabər, 2014-cü ildə əlilliyi olan şəxslərə 580 ədəd əlil arabası, 369 ədəd eşitmə aparatı verilmiş, ümumilikdə 8317 nəfərə protez-ortopedik xidmət göstərilmişdir. Nazirliyin bərpa mərkəzlərində 7658 nəfər bərpa-müalicə xidməti ilə təmin olunmuş, 76 nəfər əlilliyi olan şəxsin, 85 nəfər sağlamlıq imkanları məhdud uşağın xarici ölkələrdəki reabilitasiya mərkəzlərində bərpa-müalicəsi təşkil edilmişdir.

İslahatların digər istiqaməti ünvanlı sosial yardımların təyinatı ilə bağlıdır. Ünvanlı sosial yardım sisteminin tam avtomatlaşdırılması işləri artıq yekunlaşmaqdadır. Qabaqcıl dünya təcrübəsindən yararlanmaqla bu sahədə Azərbaycana məxsus yeni bir model hazırlanıb və bu elektron sistem ünvanlı sosial yardım üçün müraciətlərin elektron qəbulu və yardımların təyinatının avtomatlaşdırılmış şəkildə həyata keçirilməsini nəzərdə tutur. Digər tərəfdən, aztəminatlı ailələrin səmərəli əmək fəaliyyəti ilə məşğul olmaqla reabilitasiya edilməsi imkanlarının yaradılması, həmçinin ailələrin sosial yardımlara ehtiyacının müəyyən edilməsi qaydalarının təkmilləşdirilməsi nəzərdə tutulur. Bununla əlaqədar "Ünvanlı dövlət sosial yardımı haqqında" qanuna əlavə və dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin müharibə əlilləri və onlara bərabər tutulanlara diqqət və qayğısının daha bir təzahürü olaraq imzaladığı 23 dekabr 2013-cü il tarixli və 30 aprel 2014-cü il tarixli Sərəncamlarla ümumilikdə 1512 nəfərə, o cümlədən ilin əvvəlinədək növbədə olan 1445 nəfərə və cari ildə növbəyə duranlardan 67 nəfərə pulsuz avtomobil verilmişdir. Ümumən indiyədək dövlət hesabına minik avtomobili ilə təmin edilən əlilliyi olan şəxslərin sayı 5259 nəfərdir ki, onlardan 3138-i, yəni təqribən 60 faizi məhz Qarabağ müharibəsi əlilləridir.

2014-cü ildə Nazirlik tərəfindən 174 nəfər müharibə əlili və şəhid ailəsinə mənzil verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən bu sahədə yaxın bir neçə ildə ciddi irəliləyişlərə nail olunacaqdır. Belə ki, Sərəncamla 2014-cü il yanvar ayının 1-dək mənzil növbəsinə dayanmış 5731 nəfər əlil və şəhid ailəsi də 2014-2018-ci illərdə mərhələlərlə mənzil və ya fərdi evlə təmin ediləcəkdir. Hazırda bu təbəqələrdən olanlar üçün Tərtər, İmişli, Beyləqan rayonlarının hər birində 6 mərtəbəli 54 mənzilli, Şamaxı rayonunda 4 mərtəbəli 36 mənzilli, Bakı şəhərinin Nizami rayonunda 12 mərtəbəli 96 mənzilli yaşayış binaları inşa olunur. Eyni zamanda, əlil və şəhid ailələri üçün 52 rayonda 353 ədəd fərdi evin inşasına başlanmışdır. Bakı, Xırdalan, Sumqayıt, Mingəçevir, Gəncə şəhərlərində isə 59 hazır mənzil alınaraq bu kateqoriyadan olan şəxslərə verilməsi prosesinə başlanılmışdır. 2014-cü il ərzində növbədə olan imtiyazlı şəxsləri mənzillə təmin etmək məqsədi ilə 35 milyon manat vəsait ayrılmışdır. Bu təyinat üzrə ayrılan vəsait

hesabına 2015-ci ildə 1031 ədəd, o cümlədən 487 ədəd fərdi evin və 544 ədəd mənzilin əlillərə və şəhid ailələrinə verilməsi nəzərdə tutulur.

2014-cü il ərzində Nazirliyin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi tərəfindən Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş idarəsi tərəfindən yönləndirilmiş 51 nəfər insan alveri qurbanına (5 nəfər kişi, 46 nəfər qadın) və 46 nəfər (13 nəfər kişi, 33 nəfər qadın) insan alverinin potensial qurbanına hüquqi, psixoloji, maddi, tibbi yardımlar göstərilmişdir.

2014-cü ildə Dövlət Məşğulluq Xidməti tərəfindən müəssisələrdə "Məşğulluq haqqında" Qanununun tələblərinin yerinə yetirilməsi vəziyyəti araşdırılarkən zəruri məlumat və hesabatları məşğulluq orqanlarına təqdim etməyən 207 işəgötürənə qarşı müvafiq məbləğlərdə cərimələr tətbiq olunmuş və bu cərimələrin 93,6 faizi dövlət büdcəsinə ödənilmişdir.

Əlilliyi olan insanların məşğulluğuna şərait yaradılması, əmək bazarına maneəsiz çıxışının dəstəklənməsi də diqqətdə saxlanılır. Hesabat ilində məşğulluq xidməti tərəfindən sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 1036 nəfərin məşğulluğu təmin edilib ki, onlardan 249 nəfəri əlilliyi olan şəxslərdir. Həmçinin bu müddətdə 95 nəfər əlilliyi olan şəxs, o cümlədən 60 nəfər gözdən əlil şəxs peşə hazırlığına cəlb edilmişdir.

Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində 272 nəfər sağlamlıq imkanları məhdud gənc yeni peşələrə yiyələnmişdir.

Yeni hazırlanan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanun layihəsində də əlilliyi olan şəxslərin məşğulluğunun dəstəklənməsi üçün konkret istiqamətlər əksini tapmışdır. Nazirliyin rəsmi internet saytında (www.mlspp.gov.az) hazırda ictimai müzakirədə olan bu layihədə əlilliyi olan şəxslərin əməyindən istifadə üçün müəssisələrin, sexlərin və sahələrin yaradılması əksini tapır. Bu layihə əlilliyi olan şəxslərin hərtərəfli dəstəklənməsi məqsədlərini dolğun şəkildə əks etdirir. Layihəyə BMT-nin Əlillərin hüquqları üzrə Komitəsi tərəfindən də müsbət rəy verilib. Layihə ilə yanaşı BMT-nin «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Konvensiyasının müddəalarının icrası məqsədilə «Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Proqramı»nın layihəsi də hazırlanaraq Nazirliyin rəsmi internet saytında ictimai müzakirəyə təqdim olunmuşdur.

Ölkəmizdə əlilliyi olan şəxslərlə bağlı aparılan işlərin müsbət nəticəsi olaraq BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının icrası ilə bağlı ölkəmizin ilk məruzəsi 2014-cü ilin aprelində BMT-nin Əlillərin hüquqları üzrə Komitəsinin 11-ci sessiyasında yüksək dəyərləndirilmişdir.

2014-cü il ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən rəy verilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 16822 müraciət daxil olmuşdur ki, onlardan 12012-u yeni, 4810-u isə ötən illər ərzində verilmiş iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı olmuşdur. Daxil olmuş müraciətlərə baxılmış və ümumilikdə 6398 nəfər olmaqla 3885 nəfərə iş icazəsinin verilməsi, 2513 nəfərin isə iş icazələrinin müddətlərinin uzadılması məqsədəuyğun hesab edilmişdir. 10424 əcnəbiyə iş icazəsinin verilməsi məqsədəuyğun hesab edilməmişdir.

Azərbaycanda işsizlik səviyyəsi 4,9 faiz olduğu halda MDB məkanında, hətta bir çox Avropa Birliyi ölkələrində bu göstərici xeyli yüksəkdir. İqtisadi Əməkdaşlıq və İnkişaf

Təşkilatının məlumatına əsasən 2014-cü ilin sonlarında (oktyabr ayında) işsizlik səviyyəsi Avropa məkanında 11,5 faiz, Avropa Birliyində 10 faiz, İspaniyada 24 faiz, Portuqaliyada 13,4 faiz, İtaliyada 13,2 faiz, Slovakiyada 12,9 faiz, İrlandiyada 10,9 faiz, Fransada 10,5 faiz, Sloveniyada 8,8 faiz olmuşdu.




İşsizliyin azaldılması istiqamətində ƏƏSMN yanında Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən də müvafiq işlər görülür. 2014-cü ildə məşğulluq orqanlarına iş üçün müraciət edənlərin təxminən 61,8 faizi, yəni 29,5 min nəfər münasib işlə təmin edilmişdir.




Həmçinin 3786 nəfər müasir əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığına cəlb olunmuşdur. Haqqı ödənilən ictimai işlərə cəlb edilənlərin sayı 1605 nəfər, Əmək Birjaları tərəfindən müvəqqəti xarakterli işlərlə təmin edilənlərin sayı isə 4280 nəfər təşkil etmişdir. Gənclərə ünvanlanan məşğulluq tədbirləri kimi il ərzində gənclərin əmək bazarına inteqrasiyası məqsədilə ölkənin 10 ali təhsil müəssisəsində "Karyerada ilk addım" devizi altında aktiv məşğulluq tədbirləri (185 nəfər işlə təmin olunmuşdur) keçirilmişdir.

Gənclərin məşğulluğuna yeni dəstək növü kimi, BƏT-lə birgə icra olunan pilot layihə çərçivəsində bu ilin ortalarında ilk dəfə iş axtaran 15 nəfər gəncin subsidiyalı əsaslarla məşğulluğu təmin olunmuşdur. Digər tərəfdən, orta ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan 100 minə yaxın gəncə gələcək peşə-ixtisas seçimində kömək edilməsi üçün onlara peşəyönümü məsləhətləri verilmişdir. ƏƏSMN və Dünya Bankının birgə icra etdiyi "Sosial Müdafiənin İnkişafı Layihəsi"nin alt-layihələrindən biri kimi, "Virtual

müəssisələrin (təcrübə firmalarının) yaradılması və fəaliyyətə başlaması" layihəsi üzrə bir sıra ali təhsil müəssisələrində virtual təcrübə müəssisələri yaradılmışdır.

Ümumiyyətlə, bu gün Azərbaycanda ümumi iqtisadi inkişaf prosesi, çoxsaylı yeni iş yerlərinin açılması, eləcə də gənclərlə bağlı aparılan davamlı və fəal dövlət siyasəti bu təbəqədən olan insanların səmərəli məşğulluğunda ciddi irəliləyişlər yaradıb. Hazırda Azərbaycan gənclər arasında ən aşağı işsizlik həddi olan ölkələrdən biridir. Belə ki, ölkəmizdə 15-29 yaşlı gənclər arasında işsizlik səviyyəsi 9,9 faiz, 15-24 yaş arasında olanlar üzrə isə 13,5 faizdir ki, bu da dünyanın digər ölkələrindəki göstəricilərdən (15-24 yaş arasında işsizlik- Avropa məkanında 21,6faiz, Avropa Birliyində 23,5 faiz, İspaniyada 53,8 faiz, İtaliyada 43,3 faiz, Portuqaliyada 33,3 faiz, Slovakiyada 29,5 faiz, Fransada 24,3 faiz, Belçikada 24 faiz) aşağıdır.

Təsadüfi deyildir ki, Azərbaycan dünya miqyasında gənclərin məşğulluğu üzrə BMT-nin elan etdiyi on lider ölkə sırasına, habelə cari ildə Beynəlxalq Əmək Təşkilatının rəsmi saytında gənclərin səmərəli məşğulluğunun təmin olunması sahəsində dolğun hüquqi bazası, praktik iş təcrübəsi olan 41 ölkə sırasına daxil edilib.

Ölkəmizdə sosial-iqtisadi tərəqqi prosesləri demoqrafiya və əhali sakinliyinin inkişafına da öz müsbət təsirini göstərmişdir. Son 20 ildə Azərbaycan əhalisinin sayı 26 faiz artaraq 9,6 milyon nəfərə çatıb. Hazırda ölkə əhalisinin illik artım tempi 1,3 faiz təşkil edir. Körpə və uşaq ölümü halları müvafiq olaraq 2,3 dəfə və 3,5 dəfə azalıb, doğulanda gözlənilən ömür uzunluğu isə 4,6 il artaraq 74,2 yaşa çatıb. Bu müsbət demoqrafik tendensiya nəzərə alınmaqla nazirlik tərəfindən 2014-2025-ci illəri əhatə edən növbəti «Azərbaycan Respublikasının demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı»nın layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. Proqramın əsas məqsədi əhalinin kəmiyyət və keyfiyyət artımını təmin edən əhalinin təkrar istehsal səviyyəsinin stabilləşməsi üçün hərtərəfli şəraitin yaradılmasıdır. Bu Proqram ölkədə demoqrafiya və əhali sakinliyinin inkişafını 2025-ci ilədək dövr üçün stimullaşdıracaqdır.

Azərbaycan Respublikasında ahıl vətəndaşların problemləri həmişə diqqət mərkəzində saxlanılır, yaşlı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Ahıl vətəndaşların sosial rifahının yüksəldilməsi və onların cəmiyyətin inkişafında fəal iştirakının təmin edilməsi məqsədilə "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı"nın layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. Layihədə ahılların layiqli həyat sürmələri ilə bağlı mütərəqqi beynəlxalq yanaşmalar əsas götürülür.

Sağlam və layiqli əməyin təşkili bilavasitə əməyin məhsuldarlığına və işçilərin sosial müdafiəsinin yüksəldilnməsinə təsir edən əsas amillərdən biridir. Hesabat ilində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması sahəsində siyasi prioritetlər və inkişaf istiqamətlərini müəyyən etmək məqsədilə "Azərbaycan Respublikasında əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə Milli Strategiya" layihəsi hazırlanmış, aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Nazirliyin sifarişi ilə icra olunan layihələr çərçivəsində müxtəlif bölgələr üzrə 1500 nəfərdən çox uşaq sosial xidmətlərlə əhatə olunmuşdur. Bu xidmətlərin monitorinqi və

qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi üçün qabaqcıl dünya təcrübəsi əsasında, beynəlxalq ekspertlərlə birgə sosial xidmətlərə dair minimum standartların hazırlanmasına başlanılmışdır.

2014-cü il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin beynəlxalq əlaqələrinin dinamik inkişafı təmin edilmişdir və bu sahədə yaranan yeni imkanlardan səmərəli şəkildə istifadə olunmuşdur.

4 iyun tarixində Beynəlxalq Əmək Konfransının 103-cü Sessiyasında, BMT Baş Assambleyasının "Əhali və İnkişaf üzrə Qahirə Konfransının Fəaliyyət Proqramı"nın iyirmi illiyinə və onun gələcək icrasına həsr olunmuş 29-cu xüsusi sessiyasında və 17-18 oktyabr tarixlərində İtaliyanın Turin şəhərində keçirilmiş Avropa Sosial Xartiyası üzrə yüksək səviyyəli konfransda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yüksək səviyyədə təmsil olunmuş və qaldırılan məsələlərin həlli istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə geniş və ətraflı məlumat verilmişdir.

2014-cü il ərzində Bakı şəhərində müxtəlif tədbirlər - 17-18 iyun tarixlərində İslam Əməkdaşlıq Təşkilatının üzv ölkələri arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində İcra Proqramına həsr olunmuş İƏT-in Əmək məsələləri üzrə Rəhbər Komitəsinin 1-ci iclası, 24 iyun tarixində Beynəlxalq Əmək Təşkilatı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əməkdaşlıq çərçivəsində "Təhsildən məşğulluğa: gənc, ali təhsilli, ilk dəfə iş axtaranlara dəstək" üzrə layihənin təqdimatı, 25 iyun tarixində Avropa Sosial Xartiyasının Azərbaycan tərəfindən qəbul edilməmiş maddələrin müzakirəsinə həsr olunmuş seminar, 10-11 sentyabr tarixlərində Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi çərçivəsində AŞ üzv ölkələrində Sosial Birlik üzrə Strategiya və Fəaliyyət Planının tətbiqinə dair Konfrans, 11 noyabr tarixində "Milli Üçtərəfli Sosial Dialoq üzrə institusional strukturun yaradılması" mövzusunda beynəlxalq seminar, 15-16 dekabrda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və Dünya Bankının təşkilatçılığı ilə "Azərbaycanda Əlilliyin Qiymətləndirilməsi: cari nailiyyətlər və gələcək addımlar" mövzusunda beynəlxalq seminar, eləcə də BƏT-in ekspertlərinin ölkəmizə çoxsaylı səfərləri təşkil olunmuşdur.

2014-cü ildə Nazirliyin fəaliyyət sahələri üzrə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 70-dən artıq əməkdaş xarici ölkələrə səfərlərə getmişdirlər.

2014-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi bir sıra aktual (əlilliyi doğuran səbəblər və onun qarşısının alınması, əməyin ödənilməsinin gender məsələləri, işsiz və işaxtaranların müvafiq peşə hazırlığına və əlavə təhsilə cəlb edilmələri yolu ilə əmək bazarına daxil olmağa hazırlanması, əhalinin ölüm səviyyəsi və gözlənilən ömür uzunluğu, əməyin təhlükəsizliyi və sağlamlaşdırılması, Azərbaycanda rifah göstəricilərinin təhlili və qiymətləndirilməsi) mövzular üzrə elmi tədqiqat işlərini aparmış, təkliflər irəli sürmüş və tövsiyələr hazırlmışdır.

2014-cü ildə nazirliyə 49 min ədəd vətəndaş müraciəti daxil olmuş, aidiyyəti üzrə icraya verilmiş və qanunvericiliyə uyğun olaraq müraciətlərdə qaldırılan məsələlər araşdırılmış və müəyyən edilmiş müddətlərdə cavablandırılmışdır. Daxil olan vətəndaş müraciətləri üzrə statistik təhlillər aparılaraq müvafiq tədbirlər görülmüşdür. İl ərzində Nazirliyin rəhbərliyi tərəfindən 102 dəfə vətəndaş qəbulu keçirilmiş və ümumilikdə 1104 nəfər vətəndaş qəbul edilmişdir.

“2014-cü ildə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu qrafiki”nə uyğun olaraq rəhbərlik tərəfindən 12 dəfə vətəndaşların qəbulu keçirilmişdir, 709-dan çox vətəndaş qəbul edilmişdir. Qəbul zamanı nazirliyin fəaliyyət dairəsinə aid sahələrlə bağlı daxil olan şikayət xarakterli müraciətlər vətəndaşların iştirakı ilə yerindəcə araşdırılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müasir tələblərə cavab verən, mükəmməl proqram təminatı və maddi-texniki baza ilə təchiz olan “142-Cağrı mərkəzi”i yaradılmışdır. Hesabat dövründə Nazirliyin “142-Cağrı mərkəzi”inə 26,7 min müraciət daxil olmuşdur. Nazirliyin “Qəbul otağı”nda 12419 nəfər vətəndaş qəbul edilmiş və onların sayı 2013-cü ilə nisbətən (10038 nəfər) 2381 nəfər artmışdır.

Nazirliyin rəsmi facebook səhifəsi vasitəsilə vətəndaşların müraciətlərinin cavablandırılması işi təşkil olunmuş, 2014-cü il ərzində ümumilikdə 2400-dən çox müraciət cavablandırılmışdır. Hazırda isə nazirliyin rəsmi facebook səhifəsini bəyənənlərin sayı 28 mini ötmüşdür. Nazirliyin twitter hesabı da daim yenilənir. Nazirliyin fəaliyyəti ilə bağlı KİV-də gedən xəbərlərin videoyazılarının saytda və sosial şəbəkələrdə də vətəndaşlara təqdim olunması davam etdirilmişdir. Ümumilikdə nazirliyin Youtube kanalında il ərzində 200-ə yaxın video yerləşdirilmişdir.

Hesabat dövrü ərzində 500-ə yaxın press-reliz və məlumat hazırlanaraq mətbuatda yayılmışdır. Nazirliyin rəsmi internet səhifəsindəki “Xəbərlər” bölümündə 200-dən çox, “Press-relizlər” bölümündə isə 300-dən artıq məlumat təqdim edilmişdir. Nazirliyin rəsmi internet səhifəsindəki məlumatlar qeyd olunan dövr ərzində ingilis dilinə tərcümə edilmiş və gündəlik yayımlanan press-relizlərin hamısı ingilis dilinə tərcümə edilərək saytda yerləşdirilmişdir.

Nazirliyin fəaliyyətində şəffaflığın daha da təmin edilməsi məqsədilə hesabat dövründə nazirliyin rəsmi saytında bir sıra bölmələr yaradılmışdır. Nazir və nazirliyin digər rəsmi şəxslərinin yazılı və elektron KİV-də ümumilikdə 100-dən çox məlumat xarakterli müsahibələrinin, çıxışlarının yayılması təmin edilmişdir.